

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 101 (21.762)

27 may 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

* * *

Mayın 26-da "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirilib.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.

Rəsmi qəbul konsert proqramı ilə davam edib.



## Təbrizdə 28 May – Respublika Günü qeyd olunmuşdur

*Mayın 23-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğu tərəfindən 28 May – Respublika Günü münasibətilə rəsmi qəbul təşkil edilmişdir.*

Əvvəlcə Azərbaycanın və İranın dövlət himnləri səsləndirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətindən, həmin dövrdə müstəqil dövlətçiliyimizin əsaslarının yaradılmasından, dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqlarının tanınmasından, qadınlara seçki hüququnun verilməsindən və digər tədbirlərdən bəhs etmişdir. Baş konsul



ötən əsrin sonlarında xalqımızın ikinci dəfə müstəqillik qazandığını və bu zaman üzləşdiyi çətinlikləri diqqətə çatdırmış, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda müstəqil dövlətçiliyimizin əsaslarının yaradıldığını qeyd etmişdir. Bildirilmişdir ki, dahi şəxsiyyət xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmiz düşdüyü bəlalardan xilas olmuş, Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanılmış və əbədi xarakter almışdır. Bu gün ulu öndərin siyasi xətti Azərbaycanda davam etdirilir, dünya ölkələri ilə münasibətlər genişləndirilir. Dost və qonşu dövlət olan İranla əlaqələrin inkişafı da bu mənada mühüm əhəmiyyət daşıyır. Son illər hər iki ölkə prezidentinin həyata keçirdiyi rəsmi səfərlər, imzalanan sənədlər, göstərilən qarşılıqlı dəstək əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

28 May – Respublika Günü münasibətilə təbriklərini çatdıran İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti valisinin müavini Səid Şəbüstəri İran-Azərbaycan əlaqələrinin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən bəhs etmişdir.

Çıxışlardan sonra Azərbaycanın sosial-iqtisadi inkişafından və IV İslam Həmrəyliyi Oyunlarının açılışından bəhs edən film nümayiş olunmuş, Azərbaycan xalq mahnıları səslənmiş, ziyafət verilmişdir.

Rəsmi qəbulda İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

## 28 May – Respublika Günü münasibətilə tədbirlər keçirilib

*AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının növbəti məşğələsi "Ümummilli lider Heydər Əliyevin irsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunun qiymətləndirilməsi" mövzusuna həsr olunub.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsi, bununla bağlı arxiv sənədlərində və materiallarında əks olunan məlumatların xalqımıza çatdırılması istiqamətində ulu öndərimiz Heydər Əliyevin göstərdiyi xidmətlərdən söz açıb. İsmayıl Hacıyev milli tarixi yaddaşımızın bərpa edilməsi istiqamətində ümummilli liderin "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında" 1998-ci il yanvarın 30-da və "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" 2003-cü il fevralın 1-də imzaladığı sərəncamlarını xatırladıb, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Prezident İlham Əliyevin 2017-ci il mayın 16-da imzaladığı Sərəncamın əhəmiyyətini qeyd edib.

Bildirilib ki, ulu öndər hər zaman xalqımızın dövlətçilik tarixində parlaq rol oynamış Azərbaycan Xalq Cümhuriyyətinin, cümhuriyyət xadimlərinin fəaliyyətinə obyektiv və yüksək qiymət verib, müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dəfələrlə bəyan edib.

Lektoriyada bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Musa Quliyev "Ümummilli lider Heydər Əliyevin irsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunun qiymətləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Səfərlinin mövzu ilə bağlı çıxışı dinlənilib.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

*28 May – Respublika Günü ilə əlaqədar "Naxçıvan" Universitetinin Ümumi tarix kafedrasının təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli dövlətçilik tariximizin şanlı səhifəsidir" mövzusunda konfrans keçirilib.*

Konfransı giriş sözü ilə ali təhsil ocağının tərbiyə işləri üzrə prorektoru Əli Yusifov açaraq bildirib ki, 1918-1920-ci illərdə Azərbaycan bütün müsəlman Şərqində ilk demokratik respublika formasında dünyəvi dövlət qurub. Bu respublika ölkəmizin çoxəsrlik tarixi inkişafının, milli azadlıq mübarizəsinin məntiqi nəticəsi idi.

Konfransda ali təhsil ocağının Ümumi tarix kafedrasının müəllimlərindən Elçin Zamanovun "XX yüzilliyin əvvəllərində Cənubi Qafqaz böyük dövlətlərin planlarında", Vaqif Hüseynovun "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti" və Tarix müəllimliyi ixtisasının II kurs tələbəsi Sərxan Mustafayevin "Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir" mövzularında çıxışları dinlənilib.

Qeyd olunub ki, 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün əzizdir. Çünki cümhuriyyətin yaradılması odövrkü şəraitdə Azərbaycan milli azadlıq hərəkatının böyük nailiyyəti, tarixi dövlətçiliyimizin uğurlu nəticəsi idi. Demokratik respublikanın yaranması ilə birlikdə Azərbaycan xalqının, onun mütəfəkkir insanlarının müstəqilliklə bağlı arzu və istəkləri də reallaşıb.

Vurğulanıb ki, bu gün müstəqil Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin siyasi varisi kimi dünya dövlətləri sırasında öz layiqli yerini tutub. 1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər həyata keçirilib, ölkədə davamlı ictimai-siyasi sabitlik bərqərar edilib, dövlətimiz strateji inkişaf yoluna çıxarılıb. Bu gün Prezident cənab İlham Əliyev ümummilli liderimizin yolunu uğurla davam etdirir. Ölkəmizdə və muxtar respublikamızda aparılan iqtisadi və sosial islahatlar öz bəhrəsini verir. Bu gün muxtar respublikada görülən məqsədyönlü işlər nəticəsində doğma diyarımız inkişaf dövrünü yaşayır. Son illərdə Naxçıvanın qazandığı uğurlar ulu öndər Heydər Əliyev ideyalarının gerçəkləşdiyini, onun arzularının həqiqətə çevrildiyini bir daha təsdiqləyir.

Qeyd edək ki, Respublika Günü ilə əlaqədar "Naxçıvan" Universitetində müəllim və tələbələrin rəsm və əl işlərindən ibarət sərgi də təşkil olunub. Ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev sərginin açılışında çıxış edərək bu günün tarixi əhəmiyyətindən danışıb, təşkil edilən belə sərgilərin önəmini vurğulayıb.

Sərgidə müəllim və tələbələrin 100-ə yaxın rəsm əsəri, eləcə də 50-yə yaxın əl işi nümayiş etdirilir. Muxtar respublikada keçirilən müxtəlif müsabiqələrdə mükafat və diplomlara layiq görülən rəsm əsərləri sərgidə yer alıb.

**Nuray ƏSGƏROVA**

* * *



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində 28 May – Respublika Günü münasibətilə açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan Tibb Kollecinin tələbələri iştirak ediblər.*

Tədbirdə mərkəzin elmi katibi Emin Məmmədov 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik respublika olduğunu, xalqımızın tarixində mühüm rol oynadığını diqqətə çatdırıb.

Bildirilib ki, xalqımız daim öz qəlbində azad yaşamaq, müstəqil dövlətin vətəndaşı olmaq ümidini yaşadıb və bu yolda çətin mübarizələrdən keçib. Azərbaycanın müstəqilliyə gedən yolu çox çətin və keşməkeşli olub. Tarixi şərait nəticəsində ötən əsrin əvvəllərində –1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə müstəqil Azərbaycan dövlətinin yaradıldığı bütün dünyaya bəyan edilib. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya Aktının qəbulu ilə Xalq Cümhuriyyəti forması elan olunub.

Qeyd edilib ki, Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmaq kimi ali prinsipləri özündə ehtiva edən İstiqlal Bəyannaməsi yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca istiqamətlərini də müəyyənləşdirib. Yeni yaradılan dövlət mürəkkəb bir şəraitdə fəaliyyət göstərib, beynəlxalq aləmdə baş verən hərbi-siyasi dəyişikliklər nəticəsində yalnız 23 ay yaşaya bilib. Tarix üçün çox qısa bir zaman kəsiyində fəaliyyət göstərən Xalq Cümhuriyyətinin gördüyü işlər xalqımızın milli dövlətçilik məfkurəsinin formalaşmasında və inkişafında silinməz izlər buraxıb. Sonrakı dövrlərdə də kommunist rejiminin həyata keçirdiyi sərt, amansız tədbirlər, qeyri-insani, ağlasığmaz cinayətlər xalqımızın istiqlal əzmini qıra bilməyib. Zor gücünə yaradılmış sovet imperiyasını qorxu, xof ilə qoruyub saxlamaq mümkün olmayıb. 1991-ci ildə SSRİ dağılıb və Azərbaycan xalqı öz milli dövlətçiliyini yenidən bərpa edib. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gələndən sonra respublikamızı Xalq Cümhuriyyətinin hüquqi varisi elan edib.

Daha sonra Naxçıvan Tibb Kollecinin tələbələrinə mərkəzin fəaliyyəti haqda məlumat verilib.

**✍ Nail ƏSGƏROV**



28 May Respublika Günüdür

# Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçilik arzudan reallığa çevrilib

1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika kimi xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız nəhayət ki, həmin gün öz müstəqilliyinə qovuşdu. Birinci Dünya müharibəsinin gedişində Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi. Həmin dövrdə Çar Rusiyasının ağır vəziyyətə düşməsi, eyni zamanda imperiya mərkəzində baş vermiş inqilab imperiyanın müstəmləkələrində yaşayan xalqların azadlıq uğrunda mübarizəyə qalxması ilə nəticələnmişdi. 1918-ci ilin fevralında yaradılmış Zaqafqaziya seymi həmin il may ayının 25-də dağıldıqdan sonra mayın 27-də seymin 44 nəfərlik müsəlman fraksiyası Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün Tiflisdə toplaşdı. Fraksiya Azərbaycanın idarə olunmasını öz üzərinə götürərək Azərbaycan Milli Şurasını yaratdı. Milli Şuranın mayın 28-də keçirilən tarixi iclasında qəbul edilən 6 maddədən ibarət İstiqlal Bəyannaməsi ilə Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Bəyannamədə bildirilirdi ki, Azərbaycan tamhüquqlu müstəqil dövlət, onun idarə forması isə xalq cümhuriyyətidir.

1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti soyqırımı taleyini yaşamış Azərbaycan xalqını bu çətin vəziyyətdən çıxarmaq məsuliyyətini öz üzərinə götürdü. Belə ki, hökumət iyun ayının 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdikdən sonra təcili olaraq dövlət quruculuğu prosesinə başlandı. Azərbaycan hökuməti öz fəaliyyətinin mühüm bir hissəsini dövlət müstəqilliyinin qorunub saxlanması, eləcə də xarici müdaxilənin qarşısının alınması üçün ordu quruculuğuna yönəltmişdi. İyunun 26-da müsəlman hərbi korpusunun Azərbaycan korpusuna çevrilməsi ilə ordu quruculuğu istiqamətində mühüm addım atıldı və faktiki olaraq ilk milli ordu yaradıldı. Bir gün sonra Azərbaycan dili dövlət dili elan edildi. Bunun ardınca isə iyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci Dünya müharibəsi dövründə Cənubi Qafqaz ərazisində bütün türk-müsəlman əhalisinə qarşı erməni daşnakları tərəfindən törədilən soyqırımı cinayətlərini araşdırıb, cinayətkarları məsuliyyətə cəlb etməli idi. 1918-ci il noyabrın 9-da mavi, qırmızı və yaşıl zolaqlı, üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan bayraq dövlət bayrağı kimi qəbul edildi. Müstəqil respublikanın dövlət himninin qəbulu, eləcə də Azərbaycanın milli valyutasının dövriyyəyə buraxılması da Cümhuriyyət hökumətinin uğurlu islahatlarından biri kimi böyük əhəmiyyət kəsb edirdi. 1918-ci il iyunun 27-dən iyulun 1-dək Göyçay ətrafında birləşmiş türk-Azərbaycan hərbi qüvvələri ilə Xalq Komissarları Sovetinin hərbi qüvvələri arasında gedən döyüşlərin nəticəsində Bakı sovetinin hərbi qüvvələri məğlub olmuş və onların Gəncə üzərinə hücumları dəf edildi. Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu iyun-avqust aylarında Gəncədə, Yevlaxda, Göyçayda və digər bölgələrdəki ağır döyüşlərdə bolşevik-daşnak qoşunlarını darmadağın edərək sentyabrın 15-də Bakıya daxil olmuş, Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etmişdir. Beləliklə, 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara, özbaşınalıqlara son qoyulmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti sentyabrın 17-də Gəncədən Bakıya köçmüş, mühüm dövlət təsisatları burada yerləşdirilmiş, ölkədə dövlət quruculuğunun əsas mərhələsinə başlanılmışdır.

Hökumət parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına uyğun olaraq Müəssislər Məclisinin çağırılması üçün bir sıra tədbirlər həyata keçirsə də, ölkədə yaranmış ağır ictimai-siyasi vəziyyət parlamentə seçkilər keçirməyi çətinləşdirirdi. Milli hökumət Azərbaycan parlamentini mümkün qədər tez formalaşdırmağa çalışırdı. 1918-ci il noyabrın 16-da toplanan Milli Şura mövcud fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq, ali hakimiyyət orqanı kimi "Azərbaycan parlamentinin yaradılması haqqında" Qanun layihəsini hazırlamış və həmin il noyabrın 19-da bu qanunu qəbul etmişdir.

Milli Şura tərəfindən təşkil edilmiş parlamentin 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin binasında təntənəli açılışı olmuşdur. İlk parlamentin sədri Əlimərdan bəy Topçubaşov, onun birinci müavini isə Həsən bəy Ağayev seçilmişdir. Dövrün bütün çətinliklərinə baxmayaraq, parlament 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə Azərbaycan dövlətçiliyi tarixində dərin iz qoymuşdur. Şərqdə ilk dəfə olaraq Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ verilmiş, parlamentin işində Azərbaycanın ziyalı və ictimai fəal qadınları iştirak etmişlər. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında uğurlu diplomatik fəaliyyəti sayəsində 1920-ci il yanvarın 11-də Azərbaycan müstəqil dövlət kimi tanınmışdır. Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövr ərzində 20-dən çox dövlətlə diplomatik əlaqələr yaratmışdır.

Ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparan Azərbaycan Xalq Cümhuriyyəti bütün imkanlardan istifadə edərək taleyüklü məsələlərin həllinə çalışırdı. Cümhuriyyətin ölkəmizin ərazi bütövlüyünü qorumağa yönəlmiş tədbirlərindən biri də Naxçıvan məsələsi idi. Çünki o dövrdə Naxçıvan ağır illər yaşayırdı. Naxçıvan həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif maraqların toqquşduğu nöqtələrdən birinə çevrilmiş, mənfur ermənilərin Naxçıvana hücumları vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Naxçıvan əhalisi regionun Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inamla mübarizə aparırdı. Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli Naxçıvanın Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir, qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər.

Fətəli xan Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək, Azərbaycanla birləşməyə hazır olduğunu bildirərək demişdir: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi gördəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..."

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti bütün vasitələrdən istifadə edərək Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş, bu istiqamətdə diplomatik danışıqlar aparılmışdır. Ancaq ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət bəzi hallarda hökumətin öz məqsədlərinə tam çata bilməməsinə səbəb olmuşdur. Beləliklə, naxçıvanlıların igidliyi və qəhrəmanlığı sayəsində bu qədim diyar Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərsə də, xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Bu qısa tarixi dövr Azərbaycan xalqının dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun gücləndirilməsinə böyük təsir göstərmişdir. Ümummilli lider Heydər Əliyev demişdir: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı".***

Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan verməmişdir. Sovet Rusiyasının beynəlxalq hüquq normalarını tapdalayan hərbi müdaxiləsi və XI ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiya tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoymuşdur. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə, Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir. Bu cümhuriyyət, eyni zamanda bütün Şərqdə, o cümlədən Türk-İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçildiyi 1969-cu ilin 14 iyulu isə ölkəmizi həqiqi müstəqilliyə aparan yolun başlanğıcı olmuşdur. Görkəmli dövlət xadiminin rəhbərliyi altında ötən əsrin 70-80-ci illərində həyata keçirilmiş tədbirlər ölkəmizin XX əsrin 90-cı illərində müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratmışdır. Ötən əsrin sonlarında Azərbaycan yenidən öz istiqlaliyyətini bərpa etmək imkanı əldə etmişdir. Lakin ötən əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da mühüm coğrafi-strateji mövqeyi olan ölkəmiz məhvolma təhlükəsi ilə üz-üzə qalmışdı. Erməni daşnakları tərəfindən hərbi təcavüzə məruz qalmış respublikamızda çox təhlükəli vəziyyət yaranmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış gərgin vəziyyəti belə xarakterizə etmişdir: ***"Bütün tarix boyu xalqımızın müstəqillik arzusu ilə yanaşı, bu istəyə qarşı həyata keçirilmiş faciə və soyqırımı hadisələri də heyrətamiz şəkildə təkrar olunmuşdur. Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir".***

1990-cı il noyabrın 17-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında ulu öndərimizin təşəbbüsü ilə "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul olunmuşdur. Həmin qərarlara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş və bu bayraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda qaldırılmışdır.

Ümummilli liderimiz Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində rolunu həmişə yüksək qiymətləndirmiş, cümhuriyyətin xalqımızın azadlıq və müstəqillik arzularını daha da gücləndirdiyini bildirmişdir. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi ilk dəfə Naxçıvanda qeyd olunmuşdur.

Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətini yaratmışdır. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacarmış, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görülmüşdür. Dahi şəxsiyyət Heydər Əliyevin böyük siyasi təcrübəsi, qətiyyəti və misilsiz xidmətləri nəticəsində Azərbaycan nəinki öz müstəqilliyini qorumuş, həmçinin Azərbaycan Xalq Cümhuriyyəti ilə müstəqil Azərbaycan Respublikası arasında varislik əlaqəsini təmin etmişdir.

Bu gün Azərbaycan regionda lider dövlətə çevrilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan gündən-günə daha da güclənir, beynəlxalq arenada ciddi tərəfdaş kimi qəbul olunur. Artıq Azərbaycan hərtərəfli inkişafı və nüfuzu sayəsində Şərqlə Qərb arasında çoxtərəfli əlaqələrin inkişafına əhəmiyyətli təsir göstərir, dünyada sülhün, tolerantlığın təminatçısı kimi çıxış edir. Bütün bunlar ümummilli liderimizin 1969-cu ildən əsasını qoyduğu və 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizə rəhbərliyə gəlişindən sonra davam etdirdiyi siyasi xəttin, müstəqil dövlətçilik ideyalarının bəhrəsidir. Ölkə Prezidentinin dediyi kimi: ***"1993-cü il əslində real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı. Azərbaycanda demokratik təsisatlar məhz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və möhkəmləndirilmişdir. 1993-2003-cü illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaqdır. Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin edən bir dövr kimi tarixdə qalacaqdır. Biz bu gün öz fəaliyyətimizi o illərdə müəyyən edilmiş strategiya çərçivəsində aparırıq, Azərbaycanı inkişaf etdiririk. Siyasi xətt dəyişməz olaraq qalır. Bu xəttin alternativi yoxdur. Ölkədə aparılan, dərinləşən siyasi və iqtisadi islahatlar bu gün Azərbaycanı çox güclü bir ölkə kimi, regional dövlət kimi artıq dünyaya tədim edir".***

**"Şərq qapısı"**

## Dövlət himnimiz dövlətçiliyimizin əsas atributu, Azərbaycançılığın müqəddəs rəmzidir

*Azərbaycan Respublikasının Dövlət Himninin sözlərinin ilkin variantı 1919-cu ildə Azərbaycan Xalq Mətbəəsində nəşr olunmuş "Milli nəğmələr" kitabında "Vətən marşı" adı ilə dərc edilmişdir. Həmin marş "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" 1992-ci il 27 may tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir. Müvafiq Konstitusiya qanunları və "Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamə" ilə dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzi, dövlət himninə dərin ehtiram bəsləmək isə onun hər bir vətəndaşının vətənpərvərlik borcu kimi təsbit olunmuşdur.*

Milli dövlət qurmaq hər bir xalqın ən böyük və ülvi arzularından biridir. Lakin dünya xalqlarının heç də hamısı milli dövlətini qura və ya qoruyub saxlaya bilməmişdir.

Qədim dövlətçilik ənənələri, milli dəyərlər xalqları, millətləri bir-birlərindən fərqləndirən ən üstün keyfiyyətlərdir. Azərbaycan xalqının da özünəməxsus zəngin milli dəyərləri vardır – dilindən, musiqisindən, folklorundan, himnindən, gerbindən, bayrağından tutmuş dünya şöhrətli şəxsiyyətlərinə qədər. Bu mənada, Azərbaycan xalqının milli dəyərlərindən ən alisi, müqəddəsi, heç şübhəsiz, əbədi qürur yerimiz olan üçrəngli bayrağımız, gerbimiz, himnimizdir. Bu gün Azərbaycan Respublikasının Dövlət Himni Azərbaycançılıq ideologiyasının parlaq rəmzinə çevrilib.

Qeyd edək ki, "himn" sözü beynəlxalq dövlətçilik terminologiyasına görə "dövlət tərəfindən qəbul edilən milli müstəqillik və milli birlik rəmzi olan təntənəli musiqi əsəri, nəğmə, marş" mənasını ifadə edir. Həmin termin Azərbaycan dilində də eyni mənanı daşıyır. Dövlət himni müstəqilliyin musiqi və sözlə ifadə edilən müqəddəs simvolu, rəmzi, atributu olaraq milli və dövlət bayramlarında, tarixi günlərdə, rəsmi mərasimlərdə, beynəlxalq tədbirlərdə, təhsil müəssisələrində və mövcud qanunvericiliklə müəyyən edilən digər hallarda həmişə ayaqüstə, yüksək vətənpərvərlik hissi ilə, qürurla oxunur və dinlənilir. Himn həmişə dövlət bayrağı ilə bərabər tutulur.

Himni obrazlı şəkildə hər bir dövlətin musiqi bayrağı da adlandırırlar. Təsadüfi deyildir ki, bir çox dövlətlərdə əsas dövlətçilik atributları məhz təkcə bayraq və ya himndən ibarətdir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın dövlət himni haqqında demişdir: ***"1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz, qanunla istifadə etdiyimiz dövlət himnidir. O vaxt vətənpərvər insanlar bu sahədə gözəl iş görmüşlər. Himnimizin sözləri də bu gün bizim üçün doğmadır və həqiqətən Azərbaycanın müstəqilliyini, müstəqil dövlət olmağını nümayiş etdirir".***

Dövlət himnimiz istər ideya məzmun, istərsə də musiqisinin zənginliyi baxımından milli ideologiyamızın aparıcı amili olan Azərbaycançılığı, Vətənçiliyi, Vətən sevgisini və vətənpərvərlik hisslərini, dövlət müstəqilliyini, Vətənə, millətə, dövlətə, dövlətçiliyə sədaqət ideyasını parlaq şəkildə əks etdirir.

Azərbaycan marşlarının melodiyası sadə, yaddaqalan olmaqla yanaşı, məzmun baxımından da coşqun və mübariz ruhludur. Dövlət himnimizdə də əsərin şeriyyəti musiqi ritminə tabe edildiyindən, onun musiqisi səslənən kimi himnin mətni sanki bulaq suyu kimi çağlayır. Onun əzəməti, coşqunluğu, mübariz ruhu da məhz musiqi ilə qəlblərə yol tapır. İnsanların qanını Vətən sevgisi, millət duyğusu ilə coşdurur, adamları doğma Azərbaycanın birliyi, bütövlüyü, bölünməzliyi uğrunda mübarizəyə səsləyir. Himnimiz səsləndəndə hər birimizdə milli ruh yüksəlir, vətənpərvərlik, milli iftixar və qürur hissi coşub-daşır.

Azərbaycan Respublikası Dövlət Himninin mətni dərsliklərin birinci səhifəsində dərc olunur. Ümumtəhsil, texniki peşə, orta ixtisas və ali məktəblərdə yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının Dövlət Himninin öyrənilməsinə və ifasına həsr edilir. Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsində dövlətçiliyimizin əsas atributlarına, o cümlədən dövlət himnimizə hörmət etmək hər bir azərbaycanlının müqəddəs borcu hesab olunub. Hamımız bu borc hissini dərk və icra etməliyik.

Sözləri istiqlal şairi Əhməd Cavada, musiqisi görkəmli bəstəkar Üzeyir Hacıbəyova məxsus olan himnimizdə Azərbaycan xalqının və Vətən tarixinin səhifələri canlandırılır. Gənclərin tərbiyəsində mühüm rol oynayan himnimizin sözlərində həm qəhrəmanlıq tərənnüm olunur, həm də Vətənin qorunması uğrunda gənclərin hər zaman mübarizəyə, yeri gələndə şəhid olmağa, qurban getməyə hazır olmaq əzmi göstərilir. Bu gün uşaqdan tutmuş böyüyə qədər hər kəs himnimizi əzbər bilir, sevə-sevə oxuyur. Hər bir azərbaycanlı dövlət himnimizi ali mənəvi irs kimi dəyərləndirir, dövlət atributu kimi ona dərin ehtiram bəsləyir. Bu, bizim ən böyük tarixi uğurumuzdur. Çünki dövlətçilik hisslərinə malik olmayan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu mənada, Azərbaycançılıq ideologiyasını özündə əks etdirən dövlət himnimiz Vətəni, xalqı, dövləti qəlbən sevməyi, dövlət müstəqilliyi naminə yorulmadan çalışmağı bütün mahiyyəti ilə təşviq edir.

**"Şərq qapısı"**

## "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın müzakirəsi ilə bağlı tədbir keçirilib



Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açaraq bildirib ki, muxtar respublikada əhalinin və infrastruktur obyektlərinin mühafizəsi, fövqəladə hallardan qorunması, eyni zamanda baş verə biləcək fövqəladə hallara qarşı əvvəlcədən vahid elmi-praktik şəkildə mühafizə olunmanın təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" 2016-cı il 17 mart tarixli Sərəncam imzalayıb. Atlasın nəşri təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, infrastruktur obyektlərinin, o cümlədən qaz kəmərlərinin, kommunikasiya xətlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin əsaslandırılmış şəkildə həll edilməsi məqsədi daşıyır.

Sonra Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" redaksiya heyətinin sədr müavini Şamı Abdullayevin, redaksiya heyəti üzvlərindən Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubovun, muxtar respublika Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilovun, həmçinin Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanovun çıxışları olub. Çıxışlarda tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bu mənada, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" fövqəladə halların qarşısının alınmasına və mülki müdafiə işinin təşkilinə öz töhfəsini verəcəkdir. Atlasda fövqəladə halların başvermə təhlükəsi və onların qarşısının alınması üzrə tədbirlər sistemli şəkildə təqdim olunub.

Qeyd olunub ki, atlasda muxtar respublikanın iqtisadi-coğrafi şəraiti və inzibati ərazi bölgüsü, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması işinin təşkili haqda dəyərli məlumatlar vardır.

**Gülcamal TAHİROVA**

## Ali təhsil ocağının 50 illik yubileyi Kəngərli rayonunda qeyd olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında 14 yanvar 2017-ci il tarixdə imzaladığı Sərəncama uyğun keçirilən yubiley tədbirlərinin növbəti ünvanı Kəngərli rayonu olub.***

Yubiley tədbirində çıxış edən tərbiyə işləri üzrə prorektor, dosent Şamxal Məmmədov Naxçıvan Dövlət Universitetinin tarixi inkişaf yoluna nəzər salaraq bildirib ki, ali təhsil ocağında geniş bilik və dünyagörüşü qazanmaq, bacarıq və qabiliyyətləri inkişaf etdirmək, asudə vaxtı maraqlı və mənalı keçirmək üçün hər cür şərait və böyük imkanlar vardır. Prorektor Naxçıvan Dövlət Universitetinin 2014-cü ildə 799 balla, 2017-ci ildə isə 827 balla Azərbaycan Respublikasının ali məktəblərinin reytinq cədvəli üzrə birinci yerə layiq görülməsini bu universitetin artan nüfuzunun göstəricisi kimi qiymətləndirib.

Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlı bildirib ki, rayondakı müəllimlərin, ziyalı və dövlət məmurlarının bir çoxu məhz muxtar respublikanın qabaqcıl ali təhsil ocaqlarından olan Naxçıvan Dövlət Universitetinin məzunlarıdır.

Fənlərin tədrisi metodikası kafedrasının müdiri, pedaqogika üzrə elmlər doktoru Elbəyi Maqsudov Naxçıvan Dövlət Universitetinin yerli kadrların hazırlanmasında mühüm rol oynayan bir ali təhsil müəssisəsi olduğunu diqqətə çatdırıb.

Kəngərli rayon ziyalıları adından çıxış edən Əbülfəz Orucov universitet əməkdaşlarını və ziyalıları ali təhsil ocağının 50 illik yubileyi münasibətilə təbrik edib.

Tədbirdə universitetə aid albom-kitablar da təqdim olunub.

Sonda "Naxçıvan Dövlət Universitetinin inkişaf yolu" adlı filmə baxılıb.

**Nərmin CABBAROVA**

*Bizim qəribə işlərimiz çoxdur. Məsələn, çay görməmiş çırmanmaq, özümüzə umac ova bilməyə-bilməyə başqasına əriştə kəsmək, yorğanımıza görə ayağımızı uzatmamaq, boyumuzdan ucaya tullanmaq, arının yuvasına çöp uzatmaq və sair və ilaxır.*

*Jurnalistin qeydləri*

## Çörək almağa "CİP"lə gedək, ya velosipedlə?!

Bunlar, belə deyək ki, bizim klassik vərdişlərimizdəndir. Bu klassika müasir "kəşf" və oyunbazlıqlarla qovuşanda isə ortaya əcaib-qəraib mənzərələr və işlər çıxmağa başlayır.

Görkəmli bəstəkarımız Üzeyir Hacıbəyovun ötən əsrin əvvəllərində qələmə aldığı "Nərdivan" felyetonu da bizim klassik siçan-pişik işlərimizdəndir. Bu felyetonu dəfələrlə oxumuşam. Amma buna baxmayaraq, bu gün də oxumaqdan doymuram. Və də yəqin ki, min illər sonra da belə publisistik mayaklar zirvədən enməyəcək. Görək ustad sənətkar nə yazır:

"Biz nə tövr iş görürük?

Biz iş görmək istədikdə bir şeyi yadımızdan çıxardırıq.

O şey nədir?

O şey nərdivandır!

Necə yəni nərdivan? Nərdivan nədir?

Nərdivan bir alətdir ki, onun vasitəsilə adam tədriclə yuxarı çıxa bilər. Hər kəs nərdivansız yuxarı çıxmaq istəsə, elə yıxılar ki, təpəsi dağılar.

Bu belə. Bundan başqa, bir də biz həmişə başımızdan yekə iş görürük.

Amma bunun səbəbi var. Səbəbi də budur:

Qonşularımız siçan boyda iş gördükdə biz yatmışdıq. Sonra onların işi böyüyüb, keçi boyda olanda da biz yatmışdıq. Sonra onlar eşşək boyda işlər görməyə üz qoydular, biz yenə yatmışdıq. Qonşularımızın eşşək boyda olan işi, irəliləyib camış yekəlikdə oldu. Amma biz yatmışdıq. Və camış dönüb dəvə olanda da biz yatmışdıq. Biz ancaq o vaxt oyandıq, nə vaxt ki, qonşularımız fil boyda iş görməyə başladılar.

Qərəz, gözümüzü ovçalayıb dedik ki, nə var? Biz də o boyda işlər görə bilərik və başladıq fil boyda işlər görməyə.

Axırı nə oldu?

Axırı belə oldu:

Filin bir ayağını qayırmamış yoruluruq və durub qaçırıq. Sonra utanırıq, deyirik, gəlin tazadan başlayaq, ancaq burasını iqrar eləyim ki, filə gücümüz çatmır. Deyirik ki, ondan balacasını qayıraq. Fildən balaca nədir? Əlbəttə, dəvə, qərar qoyuruq ki, dəvə boyda qayıraq, başlayırıq. Amma yenə dəvənin ayağı tamam olmamış yorulub qaçırıq. Sonra yenə yığılırıq deyirik ki, dəvə iridir, ondan balacasını başlayaq, ondan balaca nədir?

– Camışdır. Başlayırıq camış boyda iş görməyə, lakin camışa da gücümüz çatmır. Aşağa enirik (halbuki qonşular fildən yuxarı çıxırlar) deyirik ki, eşşək boyda iş görək, amma eşşək də bizə güc eləyir. Tuturuq keçini, görürük yox! Keçiyə də tab gətirə bilmirik. Onda məsələ-həti qoyuruq siçan üstünə.

Amma onda da görürsən ki, içimizdən bir pişik çıxdı və siçanı yedi...

Biz belə iş görürük".

Əlbəttə, böyük sənətkarın bu felyetonunun da əsas məğzi odur ki, hər bir işin əsası yolu düz seçmək, mərhələ-mərhələ, pillə-pillə yaxşı nəticə hasil etməkdir. Qısası, hər bir işdə ardıcıllığı gözləmək sonda yaxşı nəticə verir. Amma is budur ki, dövrümüzdə nərdivansız yuxarı çıxmaq istəyənlər də az deyil. Məsələn, biz istəyirik ki, özümüzü əziyyətə salmayaq, idmanla müntəzəm məşğul olmadan qısa vaxtda çoxlu proteinli dərmanlar qəbul edib, "musqul"larımızı şişirib onabuna göstərək (son zamanlar sosial şəbəkələrdə belə dərmanların Naxçıvanda satışını reklam edən qruplar da peyda olub). Birdən-birə hansısa vəzifə tutaq, Avropa çempionu olaq, təzə planetlər kəşf edək. Hələ bir də görürsən ki, imkanı 10 min manatlıq maşın almağa çatan birisi qonşudan dala qalmayıb kreditlə 60 min manatlıq "CİP" alır. Sonra nə olur, heç nə, yemir-içmir, banklara 20 il kredit ödəyir. Bəs bu "CİP" nəyə lazımdır? Heç nəyə, ona-buna "hava" atmağa, dost-tanışın yanında qürrələnməyə, bir də yaşadığı evdən 15 addım o tərəfdə yerləşən mağazaya gedib çörək və yarım kilo banan almağa. Özünüreklam bu məsələnin bir tərəfidisə, digər bir tərəfi isə bu cür halların insanları passiv həyata, hərəkətsizliyə, dolayı yolla ürək qan-damar, dayaq-hərəkət orqanı xəstəliklərinə düçar etməsindədir.

### *Vallah, təmiz dəsgahdı...*

Yəqin fikir verməmisiniz, bu "CİP"i, "Prado"nu, nə bilim "Land-Cruzer"i istehsal edən ölkələrin özündə yerli əhali, əsasən, kiçikhəcmli 1,2-1,3 litr həcmli – yığcam motorlu, qənaətcil və manevrli, ekologiyaya az zərər vuran maşınlar sürürlər. Öz pullarını bizim kimi benzinə, bank kreditlərinə yox, təhsillərinə, istirahət və gəzintilərinə, mədəni inkişaflarına, sağlamlıqlarına sərf edirlər. Çünki krassovertipli maşınlar dağ-daş üçündür. Şəhər içində, dümdüz asfalt yollarda kiçikhəcmli maşınlar əl verir.

Həmin ölkələrdə gənclərin böyük əksəriyyəti, eləcə də yaşlı təbəqə velosipeddən geniş istifadə edir. Hər bir ictimai yaşayış binasının qarşısında velosiped dayanacaqlarının olması mütləqdir. Velosipeddən istifadə edən əhali həm puluna qənaət edir, həm də velosiped sürmək onları sağlam və gümrah saxlayır. Bəs biz nə edirik? Yuxarıda dediyim kimi, çörək almağa, parka gəzintiyə "CİP"lə gedirik. Velosiped sürənləri isə yeri gəlsə, "xuxan", "xortdan" hesab edirik. Sürənlərə "xuxan" kimi baxdığımıza görə özümüzə də sürməyi sığışdırmırıq: axı bizə də kimsə "xortdan" deyər! Düşüncəyə baxın: ağacın, kolun altında göycə ilə 15 litr pivə içəndən sonra qışqır-bağır salıb camaatı narahat etmək, günə 4 bağlam siqaret tüstülətmək, səhərdən-axşama boş-boş qeybət etmək ar deyil, amma velosiped sürmək "ayıbdır".

### *Binalarda "torba əməliyyatı"*

Çörək almaq demişkən, hələ bir də son zamanlar çoxmərtəbəli yaşayış binalarında "torba əməliyyatları" geniş vüsət alıb. Məsələ budur ki, Naxçıvan şəhərindəki yaşayış binalarının böyük əksəriyyəti dövlət hesabına ən müasir səviyyədə yenidən qurulub, sakinlər üçün ideal şərait yaradılıb. Bir bir neçə il bundan qabaq həmin binaları şəridlərlə bəzəyirdik. Sonra birtəhər başa düşdük ki, şəridlərə sicilləmə paltar sərib suyunu da küçədən keçənlərin başına damcıldatmaq heç bir normaya uyğun gəlmir, nəhayət ki, birtəhər yığışdırdıq. İndi isə balkonlar uzun kəndirlər bağlanmış "meşok" torbalarla "güllənib". Bu torbalar komfortlu "ticarət maşınlarıdır". Sallayırsan aşağı, dükançı da nə lazımdır yığır torbanın içərisinə sonra da deyir: DART. Beləcə, serial-dizi aludəçiliyi gündə 10-15 addım piyada yol qət etməyə imkan vermir.

Ardı 4-cü səhifədə




Bu minvalla da 40-45 yaşdan sonra şikayətlər başlayır: ayağım, belim tutulub, çəkim artıb, qan təzyiqim oynayır, yuxusuzluq məni təngə gətirib, oynaqlarımda ağrılar əmələ gəlib və sair və ilaxır.

### *Xəstəliklər bizə "xox" gəlir*

Bir az ətrafımıza diqqət eləsək, görəcəyik ki, Naxçıvanda son illər yüzlərlə idman, mədəniyyət ocaqları tikilib, ayrı-ayrı idman məktəbləri və federasiyalar yaradılıb, yeni tikilən məktəblərin hər birində ən müasir idman zalları da qurulub. Hətta kəndlərdə də müasir stadionlar, idman zalları, açıq idman qurğuları, mini-futbol, voleybol və basketbol meydançaları ən müasir səviyyədə tikilib-qurularaq əhalinin istifadəsinə verilib. Məqsəd nədir? Məqsəd odur ki, insanlar sağlam olsun, idman hər kəsin, hamının gündəlik həyat tərzinə çevrilsin, kütləvilik təmin edilsin. Düzdür, son illər muxtar respublikada Gənclər və İdman Nazirliyinin, idman federasiyalarının, Təhsil Nazirliyinin qarşılıqlı birgə fəaliyyəti nəticəsində 10 minlərlə gənc idmana cəlb edilib, idmançılarımız uğurlu nəticələr qazanıblar. Təkcə 2016-cı ildə muxtar respublika idmançıları beynəlxalq və ölkə əhəmiyyətli yarışlarda 108 medal qazanıblar. Artıq Naxçıvanda idman gənclərin gündəlik həyat tərzinə çevrilməkdədir. Yavaş-yavaş şəhərdə piyada yürüş edənlərin, velosiped sürənlərin, bədii gimnastikaya, əqlimizin idmanı olan şahmata, aerobikaya, fitnes-klublara üz tutan gənc oğlan və qızların da sayı artmaqdadır.

Amma gəlin etiraf edək ki, uşaq və gənclərin bu sahədəki aktivliyi orta və yaşlı nəslin nümayəndələrində yox dərəcəsindədir. Özümüzə bir az kənardan baxsaq, görəcəyik ki, bəzilərimiz kinoya, teatra, konsertə, muzeylərə öz xoşumuzla getmədiyimiz kimi, idmana da təkan və ya məcburiyyət, tələb olmadan getmirik. Məsələn, gərək belimizdə yırtıq, sinir sıxılması əmələ gələ ki, həkim bizə "idman bu xəstəliklərdə məcburi göstərişdir" deyəndən sonra üzgüçülüyə gedək. Yaxud ürəyimiz, qan təzyiqimiz sözümüzə baxmayanda, başlayaq piyada yürüşlərinə və ya velosiped gəzintilərinə… Halbuki idmanla müntəzəm məşğul olsaq, bu xəstəliklərin də heç biri bizə "xox" gələ bilməz. Pisi odur ki, hələ də bizdə o fikir qalıb ki, idman ancaq gənclər üçündür. İndi mən soruşuram: həftədə 3 dəfə idman zallarına, üzgüçülük mərkəzlərinə, axşam gəzintilərinə getmək yaxşıdır, ya ayda bir dəfə əczaxanaya?!

Gəlin diqqət edək: istər Naxçıvan şəhərində, istər rayon mərkəzləri və kəndlərdə tikilən mini-futbol meydançalarının, idman və məşq zallarının axşam saatlarında nadir hallarda işığı yanır. Bu idman qurğularına giriş üçün nə bizdən pul tələb edən var, nə də xahiş gözləyən. Halbuki bu meydançalar dünyanın hər yerində pulludur və saatı 50 dollardan ucuz deyil. Üstəlik, növbə də var və siyahı ilə günün 24 saatı dayanmadan xidmət göstərir.

### *Atıcılıq mərkəzlərimiz, peyntbol meydançalarımız da onun kimi…*

Biz uşaq olanda hamı futbolu meydançada oynayardı. Axşamlar kələ-kötür stadionlarda adam əlindən yer olmurdu. Məhəllələrarası, kəndlərarası yarışlar böyük həyəcan yaradırdı. Təkcə bizim hörmətli Cəhri kəndində 6 məhəllə komandası vardı ki, onlar arasında yarış keçirəndə iynə atsaydın, yerə düşməzdi. Dəfələrlə qonşu kəndlərə piyada gedib yoldaşlıq oyunları oynamışıq. Acınacaqlısı budur ki, indi ən gözəl stadionların qurulub-tikildiyi kəndlərdə uşaqlar futbol gözləri çıxa-çıxa səhərdən axşama kompüterlərdə oynayırlar. Ona görə də 10-12 yaşında eynək taxan uşaqların sayı sürətlə artır. Bəzən bir sinifdə 10 nəfər belə uşaq saymaq olur. Təmiz havada idman yarışları, idman mübarizəsi, qələbə sevincləri, fiziki sağlamlıq, uşaqlar kimi nə onların valideynlərinin, nə icra nümayəndələrinin, nə də ki bələdiyyələrin yadına düşür.

Atıcılıq mərkəzlərimiz, peyntbol meydançalarımız da onun kimi… Atıcılıq federasiyası yarış keçirdi, 50-100 nəfər gənc yarışda iştirak edir, keçirmədi bu qurğular, atəş silahları, "TİR"lər yatıb qalır ağzıgünə. Demək olar ki, heç birimiz bu imkanlardan lazımi səviyyədə istifadə etmirik. Velosiped sürmək, həftədə bir dəfə dağçılıq idmanlarına yer ayırmaq da onun kimi. Naxçıvan televiziyasının efirindən də tez-tez izləyirik: muxtar respublikanın Hava və Ekstremal İdman Növləri Federasiyası hətta ucqar kəndlərdə də veloyürüşlər, dağadırmanma yarışları, piyada yürüşləri təşkil edir. Müşahidə edib və görürük ki, valideynlərin bir çoxu bu yarışlara da öz övladlarını xahiş-minnətlə göndərirlər.

Amma bəzən unuduruq ki, fiziki cəhətdən sağlam böyüməyən, idmanla mütəmadi məşğul olmayan gəncin zehni inkişafı, dərsləri mənimsəməsi də yetəri səviyyədə olmur. Qısacası, sağlam bədəndə sağlam ruh olar. Hələ on ikinci əsrdə, yəni indi yox haaa, doqquz əsr bundan əvvəl dahi Nizami yazırdı:

*Bədən sağlam olsa, saf olar söz də,*
*Süst adam süst olar bədəndə, sözdə.*

### *Parklara ya tum çırtlamağa, ya da qeybət eləməyə çıxırıq*

Yadımdan çıxmamış onu da deyim ki, son illər muxtar respublikada o qədər genişmiqyaslı, hərtərəfli infrastruktur qurulub ki, bura gələn xarici qonaqlar belə, həsəd aparırlar. Təkcə Naxçıvan şəhərində deyil, rayon mərkəzləri və kəndlərdə də onlarla istirahət parkı tikilib-qurularaq əhalinin istifadəsinə verilib. Avropa ölkələrinə gedənlər bilirlər. Səhərin gözü açılmamış bu ölkələrdəki parklar idman edən, səhər gimnastikası ilə məşğul olan 50 yaşdan yuxarı qadın və kişilərlə dolub-daşır. Gəlin səmimi olaq və etiraf edək ki, biz parklara tum çırtlamağa, ya da qeybət eləməyə çıxırıq. Halbuki bizim parklar nə Londonun, nə də Vyananın parklarından kəm zad deyil. Bəs məsələ nədi?! Məsələ odur ki, idman geyimində gimnastika ilə məşğul olanda bizi qonşumuz Zəroş bacı ilə dəllək Qulaməli görər birdən… Üzüyümüzün qaşı o dəqiqə dığırlanıb düşər yerə.

Mən Avropa demişkən, elə düşünməyin ki, onlar elə tarixən idmançı olublar, sağlam yeyib, gümrah gəziblər. Əksinə, üz qırxmaqdan hamamda çimməyə qədər hər şeyi bizdən öyrəndikləri kimi, elə idmanı da bizdən əxz eləyiblər. Vaxt vardı Dədəmiz Qorqud cavanların at çapmağına, ox atmağına, torpağı, yurdu üçün göstərdiyi igidliyə baxıb ad qoyardı, onların ailə qurmasına xeyir-dua verərdi. Məhz buna görədir ki, dastanlarımız, nağıllarımız, rəvayət və əfsanələrimiz də başdan-başa igidlik, qəhrəmanlıq, cəsarət, hünər motivləri üzərində qurulub. Yəni ulu babalarımız zəngin mədəniyyət yaratmaqla yanaşı, həm də fiziki cəhətdən aktiv həyat sürüblər. Lakin sonradan biz tənbəllik edib günortayacan mürgü vuranda bir də ayılıb görmüşük ki, ivanlar, marklar, conilər bu adətimizi qamarlayıb ediblər öz həyat tərzləri.

### *Əczaxanaların qarşısındakı növbələri idman zallarının qarşısındakı növbələrlə əvəzləyək*

Axı olmaz ki, belə məsələlərdə biz özümüzə kənardan baxaq? Özümüz idmana könül verək ki, gənclər, elə övladlarımız da bizim yolumuzu tutsunlar… Bax belə etsək, tez bir zamanda görəcəyik ki, şəhərdə hamı yürüşə çıxır, gündə 7-8 kilometr yol qət edir, velosiped sürür, üzgüçülüyə gedir, hədəflərə atəş açır, istirahət parkları da səhər-səhər gimnastikayla məşğul olanlarla doludaşır. Və nəhayət, biz şəhərdə velosiped sürənlərə yox, səhərdən-axşama yuxu bişirən, mürgü vuranlara rişxəndlə yanaşsaq, tezliklə görəcəyik ki, əczaxanaların qarşısındakı növbələri idman qurğularının, meydançalarının qarşısındakı növbələr əvəz edib. Özü də əvvəlkindən sağlam və gümrah olacağıq. Görkəmli həkim və mütəfəkkir İbn Sina demişkən, "İdmanla məşğul olanın heç bir müalicəyə ehtiyacı yoxdur. Onun müalicəsi elə idmanın özüdür".

Gəlin hər birimiz idman edək, idmanla nəfəs alaq… Özü də Naxçıvanın tərtəmiz havasında...

*Sonda tənbəllik etməyib eyni sualı bir də verəcəm. İndi siz deyin: çörək almağa "CİP"lə gedək, ya velosipedlə?!*

**Sahil TAHİRLİ**
*jurnalist*

---

***Anadan olmasının 80, əmək fəaliyyətinin isə 60 illiyi tamam olan Sübhi Kəngərli mədəniyyət sahəsində 50 il səmərəli fəaliyyət göstərmiş ağsaqqal və tanınmış ziyalılarımızdandır.***

## Səksən yaşın zirvəsində



1966-cı ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində elmi işçi kimi fəaliyyətə başlamış Sübhi Kəngərli muzeyin ilk yaradıcılarından biri olmuşdur. Muxtar respublikanın mədəni həyatında böyük yeri olan görkəmli ədəbiyyatşünas-alim və yaradıcıların daim əlaqə saxladığı bu mədəniyyət ocağının gündən-günə zənginləşməsində Sübhi müəllim böyük xidmətlər göstərmişdir.

Sübhi Kəngərli 1975-1980-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun "Etika və Estetika" üzrə qiyabi aspiranturasını bitirmiş, "Şəxsiyyətin ideya-estetik inkişafında mədəniyyət müəssisələrinin rolu" (Naxçıvan materialları əsasında) mövzusunda elmi-tədqiqat işi yazmışdır.

Sübhi müəllimin mədəniyyət sahəsindəki fəaliyyəti rəngarəng olmuşdur. 1969-1972-ci illərdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, sonralar Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında elmi iş üzrə direktor müavini vəzifələrində işləmişdir. O, harada işləməsindən asılı olmayaraq, özünə qarşı tələbkar olmuş, tapşırılan vəzifələri vicdanla yerinə yetirməyə səy göstərmiş və bunu başqalarından da tələb etmişdir.

1974-1980-ci illərdə indiki Naxçıvan Dövlət Universitetində etika və estetika fənlərini tədris edən, 1980-ci ildə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində Xalq yaradıcılığı və mədəni-maarif işi üzrə şöbə müdiri vəzifəsinə təyin edilən Sübhi müəllim 1982-ci ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinə direktor vəzifəsinə keçirilmişdir. O, 30 il muzeydə direktor vəzifəsində çalışmış, işgüzarlığı ilə fərqlənmişdir. Sübhi Kəngərlinin mədəniyyət sahəsindəki yarıməsrlik fəaliyyətində onun Ədəbiyyat Muzeyində çalışdığı dövr xüsusilə qeyd olunmağa layiqdir.

Muzey işini, muzeydə işləməyi çox sevir Sübhi müəllim. İndi də elədir. O, mədəniyyət, muzey işinə dair mütəlif kütləvi informasiya vasitələrində müntəzəm çıxışlar edir, muzeylərə tez-tez gedir, həmkarları ilə birlikdə tədbirlər keçirir.

Sübhi Kəngərli elmi-tədqiqat işində də fəallıq göstərir, "Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır", "Muzey elm və mədəniyyət toplusudur", "Naxçıvanda Cəlil Məmmədquluzadə muzeyləri", "Ədəbiyyat Muzeyində Naxçıvan teatrının fondu", "Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi" kitab və kitabçaların müəllifidir. İlk məqaləsi 1968-ci ildə "Mədəni-maarif işi" jurnalında dərc olunan Sübhi müəllimin Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Naxçıvan Dövlət Universitetinin elmi əsərlərində, dövri mətbuat səhifələrində 100-dən çox məqaləsi dərc olunmuşdur. Hazırda məqalələr toplusunu nəşrə hazırlayır.

Yüksək mədəniyyətə malik, təvazökar bir insan olan Sübhi müəllim bu gün Naxçıvan Dövlət Universitetinin Arxiv işi və muzeyşünaslıq kafedrasının baş müəllimi kimi gənc nəslə, tələbələrə muzey işinin sirlərini öyrədir, bilik və bacarığını, təcrübəsini onlarla bölüşür.

Sübhi müəllimin dediklərindən: "XX əsrin 50-ci illərini xatırlayıram... orta məktəbin yuxarı siniflərindəydim. O illər yaddaşımda həmişəyaşar xatirələr olaraq qalır. Gözəl, lətif müəllimlərimiz var idi Naxçıvan şəhər 2 nömrəli orta məktəbdə... Onlardan indi yalnız biri həyatda qalıb: görkəmli ədəbiyyatşünas Yavuz Axundlu. Sinfimizdə hamı onun dərslərinə, danışığına heyranlıqla qulaq asardı... Məktəbdə ədəbiyyat, bədii özfəaliyyət dərnəyi var idi, mən də dərnəklərdə iştirak edirdim. 1949-1955-ci illərdə məktəblilərin bədii özfəaliyyət olimpiadalarının tərkibində olmuşam... Bakıda keçirilən yekun çıxışlarda iştirak etmişəm. Görkəmli bəstəkar Ramiz Mirişli, Nəriman Məmmədov, vokalist Yaşar Səfərov, Aydın Abbasov, bəstəkar Rəşid Məmmədov və başqalarını xatırlayıram... həmçinin uşaq musiqi məktəbində tar sinfində oxuyurdum, müəllimim görkəmli bəstəkar Bəxtiyar Kərimov idi. Məmməd Məmmədov, Məmməd Ələkbərov, Yusif müəllimdən dərs almışam... sonralar hərbi xidmət... tələbəlik illəri və əmək fəaliyyəti...

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda akademik Firidun Köçərli, Ziyəddin Göyüşov, Şükufə Mirzəyeva, Babək Qurbanov kimi tanınmış, görkəmli alimlərdən həm elm və bilik, həm də mədəniyyət, "həyat elmlərini" öyrənmişəm.

Fəaliyyət göstərdiyim dövrdə Ədəbiyyat Muzeyinin fəxri üzvləri kimi Abbas Zamanov, Qulam Məmmədli, Lətif Kərimov, Lətif Hüseynzadə, Əziz Şərif, Məmməd Cəfər, Rza və Məmmədhüseyn Təhmasiblər, İsa Həbibbəyli, Yavuz Axundlu, Məmməd Tağı Əhmədov, Vəli Babayev və bir çox başqaları ilə ünsiyyətdə olmuşam. Cəsarətlə deyə bilirəm ki, Ədəbiyyat Muzeyi mənim əsl "məktəbi-tərbiyəm" olmuşdur".

Sübhi müəllimlə birgə onun ömrünün nə az, nə çox düz 30 il çalışdığı Ədəbiyyat Muzeyinin fond və ekspozisiyalarına baxırıq. Burada qorunub mühafizə edilən çoxlu sayda məktublar, əlyazmalar içində ona ünvanlanan məktublar diqqətimi çəkir. Məmməd Cəfər, Abbas Zamanov kimi görkəmli akademiklərin, tanınmış publisist, teatrşünas, salnaməçi Qulam Məmmədli, görkəmli alimimiz Lətif Hüseynzadənin məktubları Naxçıvanda muzeyşünaslıq işinə, milli mədəniyyətimizin təbliği istiqamətində görülən tədbirlərə alim, ziyalı qiyməti kimi dəyərlidir.

Sübhi Kəngərlinin mədəniyyət, muzey işi sahəsində uzunmüddətli və səmərəli fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, Naxçıvan Muxtar Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

**Məmməd ƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru*


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 444